# “Əlişir Nəvai və XXI əsr”

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Əlişir Nəvai və XXI əsr” mövzusunda 8-ci beynəlxalq konfrans öz işinə başlayıb. Tədbir AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti və Özbəkistan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilir. Tədbirdən öncə Əlişir Nəvaiyə həsr olunmuş əsərlərdən ibarət sərgiyə baxış keçirilib.**

Beynəlxalq konfransı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq son illərdə Azərbaycan-Özbəkistan əlaqələrinin inkişaf etdiyini, Prezident İlham Əliyevin Türkiyə və Özbəkistanla bütün sahələrdə əlaqələrin inkişafına xüsusi önəm verdiyini söyləyib.

Azərbaycanın Əlişir Nəvainin və nəvaişünaslıq elminin ikinci vətəni olduğunu deyən akademik diqqətə çatdırıb ki, XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq ədibin əlyazmaları, əsərləri ölkəmizdə geniş yayılıb, tədqiqatlara cəlb olunub və xalqımız tərəfindən Füzuli, Nəsimi səviyyəsində qəbul olunub. Həmçinin 2020-ci ildə Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr şöbəsinin nəzdində Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzinin açıldığını və uğurla fəaliyyət göstərdiyini bildirib. Öz növbəsində Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində Məhəmməd Füzulinin adını daşıyan Azərbaycan mədəniyyət, təhsil və tədqiqatlar mərkəzinin yaradıldığını diqqətə çatdırıb.



Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şuxrat Sirojiddinov, Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, AMEA-nın müxbir üzvü Nüşabə Araslı, filologiya elmləri doktorları Ramiz Əskər, Yaşar Qasımbəyli və ADPU-nun professoru Elman Quliyev çıxış edərək Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafından, eləcə də konfransın əhəmiyyətindən danışıblar, ölkəmizdə Əlişir Nəvai ilə bağlı aparılan tədqiqatları yüksək qiymətləndiriblər.

Konfransda, həmçinin Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətova, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru Nurboy Cabbarov, İstanbul Mədəniyyət Universitetinin professoru Vahid Türk, Macarıstanın Etvos Loran Universitetinin kafedra müdiri Benedik Peri və Cənubi Koreyanın Dongduk Universitetinin professor Oh Eun-Kyung məruzələrlə çıxış ediblər.

Konfrans öz işini panel iclasları ilə davam etdirir.

**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2023.- 8 fevral.- S.10.